TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
__________ E.M.Ağayev
"22" iyul 2014-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

Bu dərman vasitəsinin qəbuluna başlamazdan əvvəl içlik vərəqəni diqqətlə oxuyun!

İçlik vərəqəni atmayın, çünki onu yenidən oxumaq Sizə lazım ola bilər.
Daha ətraflı məlumatı həkiminizdən və ya əczaçıdan ala bilərsiniz. Əgər lazım bilsəniz məsləhət üçün ona müraciət edin.

**PROSTAMED** çeynəmə tabletlər
PROSTAMED

**Tərkibi**
*Təsiredici maddələr:* yağsızlaşdırılmış balqabaq toxumunun tozu 200 mq; yağsızlaşdırılmış balqabaq toxumu tozunun təmizlənmiş ekstraktı (5-10:1), ekstragent: natrium hidrokarbonat/xörək duzu/təmizlənmiş su (3/6, 1/90,9) – 100 mq; qızılsəbət bitkisinin quru ekstraktı (5-8:1), ekstragent: etanol 60 həcm %-i- 2,6 mq; ağcaqovaq yarpaqlarının quru ekstraktı (5-8:1), ekstragent: etanol 60 həcm %-i- 6,3 mq;
*Kpməkçi maddələr:* laktoza monohidrat, кalsium hidrofosfat, kakao tozu, saxaroza, jelatin, 85%-li qliserin, povidon К25, yüksək dispersli silisium 4-oksid, talk.

**Təsviri**
Qabarıq səthə malik qəhvəyi, girdə tabletlər.

**Farmakoterapevtik qrupu**.
Prostat vəzinin xoşxassəli hiperplaziyası zamanı istifadə edilən vasitə.
**ATC kodu:** G04C X.

**İstifadəsinə göstərişlər**
Prostat vəzinin I-II mərhələli xoşxassəli hiperplaziyası (adenoması) zamanı sidik ifrazının pozulması: sidik ifrazının çətinləşməsi, tez-tez sidik ifrazı, o cümlədən gecələr sidik ifrazı, sidik kisəsinin tam boşalmaması hissi (qalıq sidiyin olması), sidik ifrazına aradan qaldırılması mümkün olmayan çağırışlar. Kəskin və xroniki prostatit (kompleks terapiyanın tərkibində).

**Əks göstərişlər**
Təsiredici maddələrə, mürəkkəbçiçəklilər fəsiləsindən olan bitkilərə, salisilatlara və ya digər komponentlərdən hər hansı birinə qarşı yüksək həssaslıq.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Hələlik Prostamedin digər dərman vasitələrilə qarşılıqlı təsiri öyrənilməmişdir.

**Ehtiyat tədbirləri**
Xəstəliyin uzunmüddətli simptomları zamanı və ya içlik vərəqədə göstərilməyən əlavə effektlər meydana çıxdıqda həkimlə məsləhətləşmək lazımdır. Sidikdə qanın aşkar edilməsi, sidif ifrazat yollarının infeksiyası, sidik ifrazı pozğunluqlarının kəskinləşməsi və ya kəskin ləngiməsi zamamı həkimlə məsləhətləşmək xüsusilə vacibdir.
Prostamedin uşaqlar və 18 yaşa qədər gənc insanlar tərəfindən qəbuluna aid kifayət qədər məlumat yoxdur. Buna görə də uşaqlar və 18 yaşa qədər gənc insanlar Prostamed preparatını qəbul etməməlidirlər.
Qalaktozaya qarşı dözümsüzlük, laktoza çatışmazlığı, fruktozaya qarşı dözümsüzlük, qlükoza-qalaktozanın malabsorbsiyası və ya saxaroza-izomaltoza çatışmazlığı kimi nadir irsi xəstəlikləri olan xəstələr Prostamed qəbul etməməlidirlər.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir etmir.

**İstifadə qaydası və dozası**
Böyüklər gündə 3 dəfə, hər dəfə 2-4 tablet qəbul etməlidirlər.
Tabletləri çeynəmək, üstündən kifayət miqdarda su qəbul etmək lazımdır (təxminən ¼ - 1 stəkan içməli su).
Preparatdan istifadənin müddəti 4 həftə təşkil edir.

**Əlavə təsirləri**
Tək-tək hallarda mədə pozğunluqları, ürəkbulanma, qusma və ishal baş verə bilər. Bundan başqa, allergik reaksiyalar, məsələn, səpgi, qaşınma, dil, ağız və udlağın selikli qişasının ödemi baş verə bilər. Hər-hansı əlavə reaksiya inkişaf etdikdə preparatdan istifadəni dayandırmaq və həkimə müraciət etmək lazımdır.

**Buraxılış forması**
60, 120 və ya 200 tablet, plastik tüblarda. 1 tüb içlik-vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Yararlılıq müddəti**
3 il.
Açıldıqdan sonra saxlanma müddəti 3 aydır.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlanma şəraiti**
25 °C-dən aşağı temperaturda, uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Dr. Qustav Klayn GmbH & Ko. KG,
Ştaynenfeld, 3, 77736, Sel am Harmersbax, Almaniya.
Dr. Gustav Klein GmbH & Co. KG,
Steinenfeld, 3, 77736, Zell am Harmersbach, Germany.